# “PROKURORLUQ, POLİS VƏ DİGƏR HÜQUQ MÜHAFİZƏ ORQANLARININ ƏMƏKDAŞLARI ÜÇÜN YETKİNLİK YAŞINA ÇATMAYANLARLA DAVRANIŞA DAİR”

## METODİK VƏSAİT

# “PROKURORLUQ, POLİS VƏ DİGƏR HÜQUQ MÜHAFİZƏ ORQANLARININ ƏMƏKDAŞLARI ÜÇÜN YETKİNLİK YAŞINA ÇATMAYANLARLA DAVRANIŞA DAİR”

## M E T O D İ K  V Ə S A İ T

Bakı - 2024

“Prokurorluq, polis və digər hüquq-mühafizə orqanlarının əməkdaşları üçün yetkinlik yaşına çatmayanlarla davranışa dair” Metodiki vəsait “Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı”nın 5.3.15-ci bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır.

Bu metodiki vəsait Komitə sədrinin 04 aprel 2024-cü il tarxli, 3-30/3-1-82/2024 nömrəli əmri ilə təsdiq edilmişdir.

## ÜMUMİ MÜDDƏALAR

Bu metodik vəsait prokurorluq, polis və digər hüquq-mühafizə orqanlarının əməkdaşları üçün yetkinlik yaşına çatmayanlarla davranışını tənzimləyir və hüquqi prosedurlar zamanı cinayətdən zərərçəkmiş, cinayətin şahidi olmuş, cinayət və hüquq pozuntusu törətmiş uşaqların hüquqlarının və qanuni maraqlarının təmin edilməsi, uşaqlarla müsahibə aparılması, dindirilməsi və onlarla davranılması qaydalarını, uşaqların və onların ailələrinin sosial-psixoloji vəziyyətinin qiymətləndirilməsini müəyyən edir.

Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsini əhatə edən sənədlər sırasında ən mühümü 1989-cu ildə qəbul edilmiş BMT-nin Uşaq Hüquqları Konvensiyasıdır. Xüsusilə, bu Konvensiyanın 37, 39 və 40-cı maddələri, həmçinin, bu Konvensiyasını tamamlayan yardımçı sənədlər xüsusi əhəmiyyət daşıyır. Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi ilə bağlı üç əsas yardımçı sənəd mövcuddur:

• Yetkinlik Yaşına Çatmayanların Ədalət Mühakiməsi ilə bağlı BMT-nin Minimum Standart Qaydaları (Pekin qaydaları 1985);

• Azadlıqdan Məhrum Edilmiş Yetkinlik Yaşına Çatmayanların Müdafiəsi üzrə BMT qaydaları (Tokio qaydaları);

• Yetkinlik Yaşına Çatmayanlar tərəfindən törədilən cinayətlərin önlənməsi üzrə BMT-nin hədəf göstərişləri.

Beynəlxalq standartlar göstərir ki, yetkinlik yaşına çatmayanlara qarşı istifadə edilən hər hansı fəaliyyət onların reabilitasiyası və cəmiyyətə qovuşmalarına yönəldilməli (BMT-nin UHK, maddə 40) və bütün hallarda uşağın ən yaxşı maraqları ilk növbədə nəzərə alınmalıdır (BMT-nin UHK, maddə 3).

Azərbaycan Respublikası Milli Məclisinin 21 iyul 1992-ci il tarixli qərarı ilə Azərbaycan Respublikası BMT-nin “Uşaq hüquqlarına dair” Konvensiyasına qoşulmuşdur və Azərbaycan dövləti uşaq hüquqlarının müdafiəsi və təmin olunmasına dair üzərinə pozitiv öhdəlik götürmüşdür. Uşaq hüquqları haqqında Konvensiyanın 2-ci maddəsinin 2-ci bəndində deyilir ki, İştirakçı dövlətlər uşağın, onun valideynlərinin, qanuni qəyyumlarının və ya digər ailə üzvlərinin statusu, fəaliyyəti, ifadə etdikləri baxışları və ya əqidələri əsasında uşağın ayrı-seçkiliyin və ya cəzanın bütün formalarından müdafiə olunmasını təmin etmək üçün hər cür lazımı tədbirləri görməlidir.

Beləliklə bu metodik vəsait prokurorluq, polis və digər hüquq-mühafizə orqanlarının əməkdaşları ilə yetkinlik yaşına çatmayanlar arasında ünsiyyətin təkminləşdirilməsini hədəfləyir.

Metodiki vəsait üç mərhələdən ibarətdir:

1-ci mərhələ: Qanunvericiliyin təhlili, beynəlxalq və yerli sənədlər, təcrübə və ölkədə mövcud qanunvericiliyin öyrənilməsi;

2-ci mərhələ: Yetkinlik yaşına çatmayan şəxsin və onun ailəsinin sosial-psixoloji vəziyyətinin qiymətləndirilməsi prinsipləri;

3-cü mərhələ: Uşaqların yaş xüsusiyyətləri, müsahibə və dindirilmə.

İstintaq hərəkətlərini aparan vəzifəli şəxs lazım olan məlumatları əldə etmək üçün uşağı (şübhəli, təqsirləndirilən, şahid və zərərçəkmiş qismində cəlb edilən) dindirən zaman uşağın inkişafı, psixoloji xüsusiyyətləri və yaşanan travmanı nəzərə almalı, təkrarlanması hallarına yol verməməlidir.

## QANUNVERİCİLİYƏ BAXIŞ

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə əsasən Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsini müvafiq icra hakimiyyəti, prokurorluq və digər hüquq mühafizə orqanları, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları təmin etməlidirlər. Bu orqanlar, birliklər və təşkilatlar fəaliyyətlərində uşaq hüquqlarının üstün mühafizəsi prinsipini əsas tutmalıdırlar.

Azərbaycan Respublikasının 28 iyul 1993-cü ildə qoşulduğu BMT-nin Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə aid minimal standart qaydalarının (Pekin qaydaları) 10.3-cü maddəsində deyilir ki, Hüquq qaydalarının mühafizəsini təmin edən orqanlarla yetkinlik yaşına çatmayan qanun pozucusu arasında təmas elə həyata keçirilir ki, yetkinlik yaşına çatmayanın əmin-amanlığına yardım göstərilsin, işin şəraiti dəqiq nəzərə alınmaqla, ona zərər vurulmasına yol verilməsin. Azərbaycan Respublikasının 22 oktyabr 2019-cu il tarixdə qoşulduğu, Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyanın 14-cü maddəsinin 4-cü bəndində deyilir ki, Hər bir Tərəf zəruri qanunvericilik və ya digər tədbirləri həyata keçirir ki, qurbana yaxın olan şəxslərin zəruri hallarda terapiya yardımı, xüsusilə təxirəsalınmaz psixoloji yardım almaq imkanı təmin edilsin.

Həmin Konvensiyanın 35-ci maddəsində uşaqdan ifadə alınmasının qaydaları öz əksini tapmışdır. Həmin maddəyə əsasən,

a) faktlar barədə səlahiyyətli orqanlara məlumat daxil olduqdan sonra heç bir əsassız ləngimə olmadan uşaqdan ifadə almaq üçün müsahibə keçirilir;

b) zəruri hallarda uşaqdan ifadə almaq üçün müsahibə bu məqsədlə yaradılmış və ya uyğunlaşdırılmış yerdə keçirilir;

c) uşaqdan ifadə almaq üçün müsahibə bu məqsədlə təlim keçmiş mütəxəssislər tərəfindən keçirilir;

d) mümkün və münasib olduqda uşaqdan ifadə almaq üçün müsahibələr eyni şəxslər tərəfindən keçirilir;

e) müsahibələr yalnız cinayət təqibi məqsədləri ilə tələb olunan mümkün qədər az sayda olmalıdır.

f) uşağı qanuni nümayəndəsi və ya münasib olduqda, onun seçimi ilə yetkinlik yaşına çatmış şəxs, bu şəxslə bağlı onun iştirakının qadağan edilməsi barədə qərar olduğu hallar istisna edilməklə, müşayiət edə bilər.

Bundan irəli gələrək Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinə 123-2-ci maddəsi əlavə edilmişdir. Həmin maddəyə əsasən cinayət prosesini həyata keçirən orqanlar tərəfindən uşaqların hüquqlarının müdafiəsi üçün görülməli olan tədbirlər qeyd olunmuşdur.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 429.0 maddəsinə əsasən, Törədilən cinayət üzrə müəyyən edilməli olan hallardan başqa yetkinlik yaşına çatmayanlar barəsində icraat zamanı:

429.0.1. yetkinlik yaşına çatmayanın yaşı (doğulduğu il, ay, gün);

429.0.2. yetkinlik yaşına çatmayanın həyat və tərbiyə şəraiti;

429.0.3. yetkinlik yaşına çatmayanın fiziki intellektual və əqli inkişaf səviyyəsi müəyyən edilməlidir.

Cinayət Prosessual Məcəlləsinin 432.3-cü maddəsinə əsasən İbtidai istintaq zamanı yetkinlik yaşına çatmayan şəxslə müstəntiq arasında əlaqələr cinayət işinin hallarının lazımi qaydada nəzərə alınması, yetkinlik yaşına çatmayan şəxsə hörmətlə yanaşılması, yetkinlik yaşına çatmayan şəxsin rifahına kömək edilməsi və ona ziyan vurulmasına yol verilməməsi şərtilə həyata keçirilir. Cinayət Prosessual Məcəlləsinin 432.5-ci maddəsinə əsasən 16 yaşınadək və əqli cəhətdən zəiflik əlamətləri olan yetkinlik yaşına çatmayan şəxsin iştirakı ilə istintaq hərəkətlərinin aparılmasında müstəntiq müəllim və ya psixoloqun iştirakını təmin etməlidir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında” 30 iyun 2008-ci il tarixli Qərarının 5-ci bəndində deyilir ki, məhkəmələrə izah edilsin ki, yetkinlik yaşına çatmayanların həyat tərzi, tərbiyəsi ilə əlaqədar ətraflı məlumat əldə etmək məqsədilə təhsil-tərbiyə müəssisələrinin və ya iş yaxud yaşayış yeri üzrə ictimai təşkilatların nümayəndələrinin də məhkəmədə iştirakını təmin etmək üçün tədbirlər görülməlidir. Qanunvericilikdən göründüyü kimi uşaq hüquqlarının müdafiəsində bütün dövlət və qeyri dövlət qurumlarının, uşaqlarla hüquqi təmasda olan vəzifəli şəxlərin üzərinə böyük vəzifə qoyulmuşdur. Bunu nəzərə alaraq hazırlanmış metodiki vəsait prokurorluq, polis və digər hüquq-mühafizə orqanları əməkdaşlarının yetkinlik yaşına çatmayanlarla necə davranılması, onlarla təmasda olarkən fiziki, psixi zorakılığa yol verilməməsi və ayrı-seçkiliyə yol verilməməsi məqsədi daşıyır.

## YETKİNLİK YAŞINA ÇATMAYAN ŞƏXSİN VƏ ONUN AİLƏSİNİN SOSİAL-PSİXOLOJİ VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ.

Ailənin sosial-iqtisadi vəziyyəti, təhsil və məlumatlılıq səviyyəsi, ailə üzvlərinin uşaqla ünsiyyəti, onların baş verənlərə münasibətinin öyrənilməsi uşağın cinayət törətməsinin araşdırlması zamanı uşaq haqqında obyektiv qərar qəbul etməyə və onun müdafiəsi zamanı yarana biləcək risklərin qarşısının alınmasına imkan verir.

Ailə funksiyalarının qiymətləndirilməsi uşağın necə inkişaf etməsini və böyüməsini, ailə üzvləri arasında ünsiyyəti, qarşılıqlı əlaqə modellərini, ailənin güclü və zəif tərəflərini qısa və effektiv şəkildə müşahidə etməyə imkan verir. Ailənin

sosial vəziyyətinin qiymətləndirməsi prosesində, ailə üzvləri və uşaqla müsahibələrdə ailə funksiyalarını müəyyənləşdirməklə gələcəkdə müvafiq xidmətin planlaşdırılması və müdaxilə proqramlarının hazırlanması üçün də vacibdir.

Qiymətləndirmə prosesində demoqrafik xüsusiyyətlər, ailə haqqında məlumatlar, ailə üzvlərinin bir-biri ilə münasibətləri və onların ətraf mühitlə qarşılıqlı əlaqəsi qiymətləndirilir. Eyni zamanda uşaqla aparılan müsahibə və ya araşdırma zamanı ailənin düşüncə tərzi haqqında fikirləri barədə məlumatlar toplanmalıdır. Qiymətləndirmə prosesində problemin həlli prosesinə təsir edə biləcək ailə resursları, sosial dəstək, iqtisadi xüsusiyyətlər, təhsil səviyyələri, dəyərlər, həmçinin məlumatın toplanması zamanı uşağın hissləri, üstünlükləri, qərar qəbul etmə və problemin həlli proseslərində iştirakının ölçülməsi də vacibdir. Qiymətləndirmədə aktiv dinləmə, uşağın probleminin həllində və qiymətləndirməsində peşəkar kadrlar tərəfindən keçirilməsi etibarlı münasibətlərinin qurulmasına töhfə verir. Uşaqla ünsiyyət zamanı onun qavrayış qabiliyyəti, vəziyyətin ardıcıllığı, istifadə edilən ünsiyyət və qarşılıqlı əlaqə nümunələri və bütövlükdə bütün davranışlar uşaq haqqında veriləcək qərarı formalaşdırır.

**Bu prosesdə nəzərə alınacaq prinsiplər:**

· Qiymətləndirmənin məqsədi və gözlənilən nəticələri aydın şəkildə müəyyən edilməsi;

· Qiymətləndirmənin hüquqi normaları, qanunvericiliyə uyğunluğu müəyyənləşdirilməsi;

· Qiymətləndirmənin hansı peşəkar heyət tərəfindən aparılacağı müəyyən edilməsi;

· Uşaqlar və ailələr qiymətləndirmə prosesinə cəlb edilməsi;

· Qiymətləndirməni peşəkar ixtisaslaşmış heyət tərəfindən (sosial işçi, sosial xidmət mərkəzləri və s.) aparılması üçün yönləndirmə prosedurunun təşkili vacibdir.

Dindirmə və müsahibələrdən sonra veriləcək qərarların düzgün peşəkar olması üçün ailə ilə ünsiyyət aparılmalıdır. Ailənin qiymətləndirilməsi müsahibə prosesində uşağın ümdə maraqlarının təmini tərəfindən baxılmasına imkan verir.

Əgər baş verən hadisə uşağın ailəsi tərəfindən törədilməyibsə, bu zaman hər bir uşaq dindirmə və digər proseslərdə öz valideynlərinə ehtiyac duyaraq onlarla ünsiyyəti təmin edilməli, həmçinin nə üçün araşdırmada iştirak etdiyi, yaxınlarına xəbər verilməlidir; ailəsinin bir üzvü ilə görüşmək və onunla birlikdə olmasını xahiş etmək; ailəsindən özünü və hüquqlarını qorumaq üçün lazımi tədbirlərin görülməsini tələb etmək hüququna malikdir. Təbii ki, bu hüquqlar ailələrə də şamil edilir, hətta sağlam ailə funksiyaları olmasa belə, valideynlərin də övladlarının harada olduğunu və onlara qarşı hansı tədbirlərin görüldüyünü bilmək, qərarların qəbulunda iştirak etmək hüquqları vardır.

Əgər uşaq zorakılığa məruz qalıbsa və bu ailə üzvü tərəfindən baş verməsi və ya sövq olunması şübhəsi vardırsa, bu halda uşağın maraqlarının qorunması

naminə onun ailəsi ilə görüşdürülməsi və ya hər hansı ünsiyyəti təmin edilmə məsləhət görülmür.

## AİLƏNİN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ VACİB MƏQAMLAR:

· Ailə quruluşu necədir? (tək valideynli, natamam, bütöv ailə və s.)

· Ailədə rollar necə bölüşdürülür?

· Ailənin identifikasiyası- ailə üzvlərinin xəstəlik tarixçəsi, zərərli vərdişlərdən istifadə edən şəxsin olması, neqativ halların olması (intihar, təcavüz və s.), iqtisadi imkanlar, yaşayış şəraiti, ailə dəyərləri?

· Ailədaxili ünsiyyət necədir? Valideynlər və uşaqlar arasındakı əlaqə, maddi-mənəvi dəyərlərin paylaşılması, zorakı münasibət, valideynlərin uşaqlardan gözləntiləri, uşaqlara baxışı necədir?

· Ailə üzvlərinin ümumi görünüşü və davranışı-emosiyalar, ailədəki əhval-ruhiyyə necədir? Onların ünsiyyət səviyyələri (özünü ifadə etmə və s.), idrak səviyyələri (şüur, oriyentasiya, yaddaşı, qavrayışı) necədir?

· Ailənin sosial mühitlə əlaqəsi necədir?

· Ailəni digər problemlərinin mövcudluğu

· Ailənin uşağın probleminə baxışı necədir?

· Problemin yaranmasında və uşaqla baş verən hadisədə ailəsinin rolu hansı səviyyədədir?

Uşağın ailəsi tərəfindən dəstəklənməsi istintaq mərhələsində iştirak edən bütün tərəflər (prokurorluq, polis və digər hüquq-mühafizə orqanlarının əməkdaşları) tərəfindən qayda kimi nəzərə alınmalıdır. Unutmaq olmaz ki, ailənin qiymətlənidirlməsi və ailə ilə ünsiyyət “uşaqla bağlı hadisə”nin bütün mənzərəsini görməyə, uşağın vəziyyətini və buna sövq edən səbəbləri başa düşməyə, istintaq zamanı uşaq üçün düzgün qərarın verilməsinə, veriləcək qərarda uşağın və ailənin iştirakını təmin etməyə imkan verəcək.

## EKSTREMAL ŞƏRAİTLƏRDƏ YETKİNLİK YAŞINA ÇATMAYAN UŞAQLARIN İNKİŞAF MƏRHƏLƏLƏRİ NƏZƏRƏ ALINMAQLA YAŞ DÖVRÜNƏ MÜVAFİQ ÜNSİYYƏT VƏ EHTİYACLARIN DƏYƏRLƏNDİRİLMƏSİ

Yaş dövrlərinin düzgün müəyyən olunması hər dövrdə təlim-tərbiyə işlərinin istənilən səviyyədə aparılmasına imkan verir, həmçinin onlarla istənilən sahə mütəxəssisi tərəfindən qurulacaq ünsiyyətin əsasında durur. Lakin yaş dövrləri hələ tam şəkildə araşdırılmamış olaraq qalır, çünki müəyyən edilmiş yaş dövrləri hələ təxmini xarakter daşıyır. İnkişaf fasiləsiz getdiyindən bir yaş dövründən digərinə keçidin məhz nə zaman baş verdiyini müəyyənləşdirmək çətin olur. Ona görə də şəxsiyyətin formalaşmasından və yaşa uyğun əlamətlərdən danışarkən yalnız xronoloji yaşa baxılması kifayət etmir, eyni zamanda psixoloji yaşını müəyyən

etmək və şəxsiyyətin özündə nəzərəçarpan dəyişiklikləri müşahidə etmək vacibdir.

Yeniyetməlik yaş dövründə şəxsiyyətin inkişafında baş verən dəyişikliklər aşağıdakılardır:

- Fiziki, fizioloji və psixoloji inkişaf sürətlənir;
- İnsanın həyatda qarşılaşdığı ən çətin böhran dövrüdür;
- Şəxsi ünsiyyət sferası formalaşır;
- "Mən"in inkişafı ilə əlaqədar digər sosial qrupun üzvü olma və etiraz etmə istəyi baş qaldırır;
- Özünü və başqalarını qiymətləndirmə, mənlik şüuru, ictimai-əxlaqi münasibətlər, real və ideal "MƏN" formalaşır;
- Müstəqillik imkanları inkişaf edir;
- Emosional sfera dərinləşir, sevgi və nifrət hissi formalaşır;
- Başqaları və həmçinin valideynləri ilə ünsiyyətin təməlində "yaşlılıq" hissinin yaranması durur;
- Yeniyetmələrdə identiklik formalaşır.

**Yaş dövrü 0-2 yaşa** uyğun olan uşaqların ekstremal şəraitlərdən təsirlənməsi olduqca aşağıdır. Çünki onlar dünyaya gələrkən ilk refleksləri güvən duyğusu üzərində qurulmuşdur. Ve belə olan halda, onlara təsir edən əsas məsələ fövqəladə vəziyyət deyil, valideynlərindən ayrı qalmaq qorxusudur. Ona görə də əgər uşaqlarda baş vermiş hadisədən yaranan fiziki xəsarətlər yoxdursa, ilkin məqsəd uşaq üçün etibarlı və özünün təhlükədə hiss etməyəcək mühit yaradılmasıdır. Həmçinin bu yaşdakı uşaqlar ətrafındakıların emosional ifadələrini təqlid etməyə meyilli olurlar. Ona görə də uşaqların emosional gərginliklərini azaltmaq məqsədilə onları xilas edən əməkdaşların öz emosiyalarını gizlətməyə çalışması və müsbət emosiyaları ifadə etməyə çalışması mühüm amildir.

**2-5 yaş dövründə** uşaqlarda artıq "mən" hissi formalaşdığından onlar ekstremal şəraitdə hisslərini sözlərlə ifadə edə bilməsə də, həmin anda ödənilməsi lazım olan ehtiyacları birinci növbədə bağlı olduğu vasitələri – valideynlər və ya oyuncaqlar təmin etmək onların özünü güvəndə hiss etməsinə səbəb ola bilər.

**6-11 yaş dövründən** olan uşaqlar ekstremal şəraitlərdə diqqət dağınıqlıqları, aqressivləşmə, ünsiyyət qurmaqda çətinlik çəkməsi ilə xarakterizə olunur. Həmin anda əməkdaşlar tərəfindən göstərilə biləcək əsas yardım valideynlər, baş vermiş hadisə, itkilər və gözləntilər haqqında sual-cavab etmədən uşağın özü ilə sakit qala biləcəyi mühitin yaradılmasıdır.

**12-18 yaş dövrünə** aid uşaqlar üçün həyatın əsas təməli həmyaşıdları ilə ünsiyyətdir. Uşaqlar ekstremal şəraitlə qarşılaşdıqları anda digərlərinin itkisini qəbul edə bilmir, sağ qaldığı üçün özünü günahkar hiss edir. Buna görə də ətrafda ona dəstək göstərənlərə qarşı aqressiv reaksiya verir, dalaşqan və qırıb-dağıtmağa meyilli olur. Bu yaş qəbilindən olan uşaqlara əməkdaşlar tərəfindən göstərilməli əsas yardım onların sakitləşə biləcəyi mühit yaratmaq,  əl altından həyatına təhlükə vura biləcəyi avadanlıqları yığışdırmaq (intihar riskini aradan qaldırmaq üçün), mütəxəssislə söhbət etmək üçün şərait yaratmaqdır.

## CİNAYƏT İŞLƏRİ ÜZRƏ AYRI-AYRI İSTİNTAQ HƏRƏKƏTLƏRİ (DİNDİRMƏ, BAXIŞ, ŞƏXSİ MÜAYİNƏ, ŞƏXSİN VƏ ƏŞYALARIN TANINMASI, GÖTÜRMƏ, AXTARIŞ VƏ İFADƏLƏRİN YERİNDƏ YOXLANILMASI) İLƏ BAĞLI PROSESSUAL HƏRƏKƏTLƏR ZAMANI YETKİNLİK YAŞINA ÇATMAYAN ŞƏXSLƏRİN PSİXOLOJİ VƏZİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ ZAMANI YETKİNLİK YAŞINA ÇATMAYANLARLA DAVRANIŞ

**Dindirmə / Dindirmənin mərhələləri**

Dindirmə psixoloji cəhətdən çox mürəkkəb bir prosesdir. Dindirmənin psixoloji əsasını dindirilən şəxslə-yetkinlik yaşına çatmayanla psixoloji kontaktın yaradılması təşkil edir. Psixoloji kontakt dindirmə zamanı müstəntiqlə dindirilən şəxs arasında yaranan psixoloji münasibət olub, iş üçün maraqlı olan hallara dair doğru ifadələrin alınmasını təmin edir.

**Psixoloji kontakt dindirmənin ilk mərhələsində yaranır və proses daxilində daha da möhkəmlənir.**

Uşaqlara verilən məlumatların onların yaşına və psixi inkişafı səviyyəsinə uyğun qaydada və onların başa düşdükləri dildə təqdim olunması və uşağın mənafeyi, yaxud cinayət-prosessual fəaliyyətin məqsədləri üçün belə təmasın tələb olunduğu hallar istisna olmaqla, cinayət prosesinin istənilən mərhələsində uşaqla şübhəli və ya təqsirləndirilən şəxs arasında təmasın olmamasının təmin edilməsi tövsiyə olunur.

**Dindirmənin əsas prinsipləri:**

- uşağın mənafeyi tələb etdiyi hallar istisna olmaqla, hər hansı gecikdirməyə yol verilmədən uşaqdan ifadə alınması;

- uşaqdan ifadənin alınması bu məqsədlə ayrılmış yerlərdə və ya yaradılmış xüsusi şəraitdə həyata keçirilməsi;

- uşaqdan ifadənin alınması cinayət prosesini həyata keçirən orqanın bu məqsədlə xüsusi hazırlıq keçmiş əməkdaşları tərəfindən həyata keçirilməsi;

- mümkün olduğu hallarda uşaqdan təkrar ifadənin alınması eyni şəxs tərəfindən həyata keçirilməsi;

- uşaqdan ifadələr iş üçün əhəmiyyətli hallarda və mümkün qədər az sayda alınması;

- mümkün olduğu hallarda uşaqdan bütün ifadələrin videoçəkiliş aparılmaqla alınması tövsiyə olunur.

Ümumiyyətlə dindirmənin bir neçə mərhələsi fərqləndirilir.

***1. İlkin mərhələ*** - Əsas məqam dindirilənə fərdi yanaşmadır. Hətta eyni yaş dövründə olan və ya eyni ailədən gələn uşaqlar belə hadisələrə öz psixi proseslərinin inkişaf xarakterindən asılı olaraq fərqli yanaşır.

***2. Sərbəst ifadə mərhələsi*** - bu mərhələdə dindirilən şəxsə araşdırılan işlə bağlı ona məlum olan informasiyanı sərbəst nəql etmək imkanı verilir. Bu zaman əldə edilən faktları 3 kateqoriyada qruplaşdırmaq lazımdır.

*Dəqiq müəyyən edilmiş faktlar;*

*Şübhə doğuran faktlar;*

*Hadisənin mövcud zənciri üçün əhəmiyyətli, lakin naməlum faktlar.*

***3. Dindirmənin dəqiqləşdirici mərhələsi -*** Bu mərhələdə müstəntiqin verdiyi sualların qoyuluşundan çox şey asılıdır. Suallar təlqinedici, neytral, açıq və qapalı ola bilər.

***4. Sonuncu mərhələ -*** Əldə edilmiş ifadələrin tam və obyektiv şəkildə qeydə alınması. Yadda saxlamaq lazımdır ki, əldə ediləcək məlumatların doğruluğu yeniyetmənin gələcək həyatının özəyini təşkil edəcək. Xüsusilə yeniyetməlik dövründə yaranmış travma sonrakı yaş dövrlərində uşağın şəxsiyyətinin formalaşmasına əvəzsiz təsir göstərir. Bu baxımdan müstəntiqin yanaşması xüsusi əhəmiyyət kəsb edir.

**Dindirmənin/sorğunun/dinləmənin strukturu**

**Açılış/İsinmə**

- Uşağı və digər iştirakçıları salamlayın;
- Neytral bir mövzuda "isinmə" ilə başlayın (məsələn, ad günü);

Hüquqi parametrlər

- Kim olduğunuzu, kimlərin iştirak etdiyini, nə etdiyinizi, necə və nə üçün etdiyinizi izah edin;
- **Milli qanunvericiliyin** tələblərinə uyğun olaraq hüquq və vəzifələrini izah edin (susmaq hüququ və s.);

Ünsiyyət qaydaları

**(uşaqların proses daxilində özlərini rahat hiss etmələri məqsədilə onlara öncədən bu qaydalar haqqında məlumat verilir.)**

- "Bilmirəm" deyə bilərsən;
- "Əmin deyiləm" deyə bilərsən;
- "Başa düşmədim" deyə bilərsən;
- Səhv etsən düzəliş edə bilərsən;
- Mən səhv etsəm məni düzəldə bilərsən.

"Dindirmə"

- Sadə sözlər, texniki terminlərdən istifadə etməmək, qısa cümlələr qurmaq;
- Açıq suallar/ sərbəst nəqletmə (Nə baş verdi? Və nə zaman?);
- Daha sonra xüsusi suallara keçid (nə, niyə, nə zaman, kim, necə), lakin yenə də mümkün qədər açıq suallar (hansısa maşın haqqında danışırdın, həmin maşınla bağlı daha ətraflı danış) ;
- Bu sözlərlə yekunlaşdırın: "Soruşmağı unutduğum bir şey varmı?"; "Əlavə etmək istədiyin bir şey varmı?";

Yekun

- Növbəti addımları və/və ya qərarları izah edin və başa düşüldüyündən əmin

olun (məsələn, uşaqdan danışdıqlarınızın qısa xülasəsini istəyin) ;

- Neytral mövzu ilə yekunlaşdırın;

- Sağollaşma.

**Dindirmənin üsulları**

Aşağıda uşaqların maraqlarını nəzərə alan ünsiyyət üslubuna yiyələnmək üçün bəzi tövsiyələr verilir. Bu tövsiyələrin əksəriyyəti cinayətdən zərər çəkən və cinayətə şahid olan uşaqlar nəzərə alınmaqla hazırlanmışdır. Bununla belə, bu hissədə göstərilmiş tövsiyələr əsas etibarilə qanunla təmasda olan bütün uşaqlara şamil olunur.

**Nitq üslubunun uyğunlaşdırılması**

İlk növbədə, uşaqlarla danışarkən istifadə edilən nitq üslubu hər bir uşağın fərdi inkişaf səviyyəsinə və yaşına görə uyğunlaşdırılmalıdır. Müxtəlif inkişaf mərhələləri ilə bağlı bəzi məlumatlar bu bölmənin sonunda təqdim olunur. "Təhlükəsiz" ünsiyyət üslubunu təmin etmək (uşaqların təsir altına düşməsini və anlaşılmazlıqları önləmək) üçün uşaqlarla ünsiyyət qurarkən aşağıda göstərilmiş ilkin qaydalara riayət etmək məsləhət görülür:

*İstifadə etdiyiniz nitq üslubu mümkün qədər sadə və aydın olmalıdır:*

*- Sadə sözlərdən və qrammatikadan istifadə edin.*

*Nümunə:*

*- İstəmirsənsə, mənimlə danışmağa məcbur deyilsən (dəlil təmin etməkdən imtina etmək hüququ)*

*- Hansısa səhvə yol verib-vermədiyini yoxlamalıyam ("x"-ə qarşı cinayət işinin açılması)*

*- Nə baş verdiyini mənə danışa bilərsənmi?*

*- "Zorlama", "oğurluq", "ittiham", "şikayət" kimi hüquqi terminlərdən istifadə etməyin.*

*- Qısa və aydın cümlələr qurun.*

*- Çoxbudaqlı mürəkkəb cümlələrdən çəkinin.*

*- Bir sualla yalnız bir fikri əhatə etməyə çalışın.*

*Nümunə:*

*- Səhvdir: Kişi idi? Necə görünürdü?*

*- Dəqiq olun*

*- "O" deyə xitab etməyin, şəxsin adını çəkin.*

*- 6 yaşa qədər və ya psixloji inkişafında gerilik olan uşağın (hələ) başa düşmədiyi çətin məfhumlardan istifadə etməyin.*

*Nümunə:*

*- Səhvdir: Neçə dəfə? Düzdür: Bir dəfə yoxsa daha çox?*

*- Səhvdir: Nə vaxt baş verib? Düzdür: Sənin ad günündən əvvəl yoxsa sonra baş verib? Qar yağmışdı?*

*- Səhvdir: Hündürlüyü nə qədər idi? Düzdür: Məndən daha böyük idi yoxsa balaca?*

*- Səhvdir: Nə qədər aralıda idi? Düzdür: Göstərə bilərsən nə qədər aralıda idi?*

**Müddətin uyğunlaşdırılması**

Uşaqlar yalnız məhdud bir müddət diqqətlərini cəmləyə bilirlər. Bəzi uşaqların, məsələn hiperaktiv uşaqların uzun bir müddət ərzində sakit qalmaq və diqqəti cəmləməklə bağlı xüsusi problemləri ola bilər. Buna görə də, hər bir uşağın dindirilməsi onun fərdi tempinə və diqqəti cəmləmə müddətinə uyğunlaşdırılmalıdır. Lazım gələrsə, uşağın bir az hərəkət edə biləcəyi və ya istirahət edə biləcəyi fasilələr planlaşdırılmalıdır. Arada su təklif etmək də uşağın özünə gəlməsinə kömək edə bilər. Bununla yanaşı diqqəti dağıdan və maneə törədən halların minimuma endirilməsi də kömək edə bilər (telefon zənglərinin, lazımsız şəkildə otağa girib-çıxmaların, ətrafda oyuncaq və ya kitabların olmaması, divarların səskeçirməz olması və s.).

Aşağıdakı təxmini xarakterli mülahizələr irəli sürülə bilər:

- *uşağın yaşı nə qədər az olarsa, dindirmənin müddəti də bir o qədər qısa olmalıdır*;
- *8 yaşdan aşağı olan uşaqlar üçün çox vaxt təqribən 30 dəqiqə kifayət edir*;
- *daha böyük uşaqlar/ yetkinlik yaşına çatmayanlar üçün 45-90 dəqiqə arası bir müddət kifayət edə bilər*;
- *yaşı daha yuxarı olan yetkinlik yaşına çatmayanların diqqəti təxminən 2 saatdan sonra dağılmağa başlaya bilər*;
- *lazımı qədər fasilə verilməlidir*;
- *daha mürəkkəb hallarda (məsələn, uşaq illər ərzində baş vermiş zorakılığa dair məlumat verirsə) bir müddətdən sonra dindirməni dayandırmaq və növbəti gün davam etdirmək lazım gələ bilər, xüsusilə əgər uşaq yorulub davam etmək istəmirsə*;
- *Yeniyetmələrin dindirilməsinin bir saatdan artıq davam etməsi tövsiyə olunmur.*

**Vaxtın uyğunlaşdırılması**

Dindirmələr, sorğular və dinləmələr uşaqlar üçün uyğunlaşdırılmış müddətlə yanaşı, həm də uşağın yaşını və yetkinliyini nəzərə alaraq günün müvafiq saatlarına təyin edilməlidir. Adətən uşağı hadisədən sonra mümkün qədər tez dinləmək məsləhət görülür (yaddaş hələ təzə olur və uşağın özünü ifadə etməsinə imkan verir).

İmkan daxilində yetkinlik yaşına çatmayanın dindirilməsi sonraya saxlanılmamalıdır. Lakin xüsusilə ağır cinayətlər baş verdikdə yetkinlik yaşına çatmayanlar

güclü ruhi həyəcan keçirir və ilk vaxtlar dəqiq ifadə verməkdə çətinlik çəkir. Bir qədər vaxt keçdikdən sonra isə hadisəni daha dəqiq və ətraflı xatırlaya bilir. Bu səbəbdən onların bir-iki gün sonra dindirilməsi daha müsbət nəticə verə bilər.

**Təlqinə həssaslıq**

Uşaqlar asanlıqla təsir altına düşə bilər. Uşağın yaşı nə qədər az və ya əqli inkişaf səviyyəsi nə qədər aşağı olarsa, bu risk bir o qədər yüksək olur. Bu da, yalnız təqsirləndirilən şəxs (yaşlı) üçün deyil, eyni zamanda zərərçəkən/şahid və ya şübhəli/təqsirləndirilən qismində çıxış edən uşaq üçün də ağır fəsadlar törədə biləcək yanlış ifadə və hətta yanlış mühakiməyə gətirib çıxara bilər. Bu cür halların qarşısının alınması üçün müəyyən növ suallardan və davranışlardan çəkinmək lazımdır.

## YETKİNLİK YAŞINA ÇATMAYANIN ŞƏXSİN DİNDİRİLMƏSİ ZAMANI VERİLƏN SUALLAR

***Sual növləri:***

Sualların əsasən üç növünü fərqləndirə bilərik: açıq suallar, qapalı suallar və yönəldici (təlqinedici) suallar. Dindirmə/sorğu/dinləmələrdə açıq suallarla başlamaq lazımdır. Yalnız sonra istənilən qədər konkret suallar vermək olar. Yönəldici suallar verilməməlidir.

**Açıq suallar:**

Açıq suallar *çoxcümləli cavablara* ("sərbəst nəqletmə") şərait yaradır. Uşaq bütün xatırladıqlarını öz sözləri ilə və istədiyi "ardıcıllıqla" danışmağa dəvət olunur. Bu, dindirən şəxsin müdaxiləsini və bu minvalla da dindirilən şəxsin təsirə düşmə riskini minimuma endirərək eyni zamanda daha çox məlumatın toplanmasına imkan verir.

***Nümunə:*** *Nə baş verdiyini danışa bilərsənmi? Sonra nə baş verdi? ... haqqında bir az da danış.*

**Qapalı suallar:**

Qapalı suallar *qısa cavablara və ya "bəli" və "xeyr" kimi bir sözdən ibarət olan cavablara* gətirib çıxarır. Bu cür suallar "kim, nə, harada, nə zaman, necə" tipli suallardan istifadə etməklə daha ətraflı məlumat almaq və qaranlıq qalan məsələləri aydınlaşdırmaq üçün lazım ola bilər. Burada uşağın yönləndirilmə riski var, çünki siz uşağı hansısa kontekstlə və ya cavab variantları ilə təmin edirsiniz. Buna görə də bu sualları mümkün qədər açıq suallara çevirmək tövsiyə edilir.

***Nümunə:***

*Maşın nə rəngdə idi?*

*Maşın nə rəngdə idi: göy, qırmızı, ağ, yoxsa başqa rəng? (qapalı sual)*

*Hansısa maşından danışırdın. Həmin maşın haqqında daha ətraflı danış (qapalı sualın açılması = ən yaxşı təcrübə)*

**Yönəldici (təlqinedici) suallar:**

Yönəldici suallar dedikdə, artıq hansısa cavabı təklif edən suallar nəzərdə tutulur. Belə suallara *yol verməmək* lazımdır.

***Nümunə:***

*Bunu edən sənin baban idi, hə?*

*Mobil telefonu sən oğurladın, düzdür?*

***Təlqinedici davranış***

Təlqinedici davranışlardan yayınmaq üçün aşağıda bəzi tövsiyələr verilir:

- *Stereotipləri aşılamayın,* məsələn “X yəqin elə şeylər edib ki, əslində böyüklər bunu uşaqlara etməməlidir”

- Uşaqlar öz cavablarını dəyişdirməyə meyilli olduqları üçün *eyni qapalı sualı iki dəfə verməyin* – çünki əgər sual təkrarlanırsa onlar birinci cavablarının qənaətbəxş olmadığını düşünürlər. Onun yerinə belə deyin: “Mən tam olaraq başa düşmədim, bir də izah edə bilərsən?”

- *Uşağın özü qeyd etmədiyi təqdirdə ona təfərrüatlarla bağlı informasiya verməyin*. Çünki uşaqların sonradan həmin şeyləri özlərinin qeyd etdiyini/yaşadığını düşünməsi riski var.

- *Həmyaşıdları nümunə gətirərək təzyiq etməyin.* Məsələn, “B çox cəsur idi və hər şeyi olduğu kimi danışdı. Hiss edirəm ki, sənin bunu etməyə cəsarətin çatmır”. Uşaq bu cür təzyiqə davam gətirməyə bilər.

- *Təkid yolu ilə dindirməkdən çəkinin*; uşaq təzyiq altına düşüb sadəcə dindirən şəxsin gözləntilərini qarşılamağa çalışa bilər.

- *Müəyyən bir nəticə gözləməyin*, çünki siz bu ehtimalınızın təsdiqlənməsinə çalışaraq uşağa təsir göstərə bilərsiniz.

- *Bədən dilinizə fikir verin*: qaş-qabaq etmək, yalnız xüsusi hallarda dostyana gülümsəmək, başla təsdiq etmək, qolları sinədə qovuşdurmaq, üz əzələlərinin kiçik hərəkətləri, intonasiya – bütün bunlar sizin öz fərziyyələrinizi əks etdirə bilər və razılıq və ya narazılıq kimi başa düşülə bilər.

- Unutmayın ki, uşaqlar erkən yaşlarında *böyüklərin “adətən onlardan daha çox bildiyini”* öyrənir və beləliklə də yetkin bir şəxs hansısa məsələ ilə bağlı əmin göründükdə uşaq da bu fikri mənimsəyə meyilli olur.

## YAŞA GÖRƏ DİNDİRMƏNİN XÜSUSİYYƏTLƏRİ

Yetkinlik yaşına çatmayanların törətdikləri əksər cinayətlər onların yaş xüsusiyyətləri ilə şərtlənir, özünü təsdiq etmək, nüfuzlu şəxsləri təqlid etmək meyli ilə bağlı olur.

Yetkinlik yaşına çatmayanların davranışı aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

· *həyat təcrübəsinin azlığı*;

· *özünütənqidin aşağı olması*;

· *yüksək emosional oyanıqlıq*;

· *impulsivlik*;

· *hərəki və verbal aktivlik*;

· *təlqinə meyl*;

· *referent qrupda prestije meyl*;

· *neqativizm*;

· *oyanma və ləngimənin müvazinətsizliyi.*

Dindirmə prosesində yeniyetmə və kiçik yaşlı uşaqlar müəyyən faktları yada salarkən fantaziyalara meyl edir, öz ifadələrini uydurma elementlərlə doldurur. Yeniyetmələr obyektlərin məkanda yerini, zaman intervalını yada salarkən, hadisələrin ardıcıllığını qiymətləndirərkən təhriflərə yol verir.

***Ümumiyyətlə yeniyetmələrin dindirilməsi bir saatdan artıq davam etməməsi məsləhət görülür.***

**3-4 yaşlı uşaqlara** gəldikdə isə onları yalançı şahid qismində istifadə etmək qeyri-mümkündür. Bu yaşda uşaqları nəyisə yadda saxlamağa məcbur etmək mümkün deyil.

**4-6 yaşlı uşaqlar** isə gözləri qarşısında çox təkrarlanan, onlara yaxşı tanış olan hərəkətləri, çox güclü təsir edən hadisələri yaxşı yadda saxlayır. Bu uşaqlarla dindirməni 20 dəqiqədən artıq etmək olmaz. Dindirmə prosesində yadasalmanı yüngülləşdirmək üçün aşağıdakı üsulllardan istifadə etmək olar:

***Şahidə müxtəlif sualların verilməsi, plan, sxem, şəkillərdən istifadə üsulları:***

**7-11 yaş-kiçik məktəb yaş dövründə olan uşaqlarda** artıq məntiqi düşüncə, nitq və fəaliyyəti idarə etmə bacarıqları formalaşmış olur. Bu səbəbdən onlar təxəyyül və fantaziyalardan reallığa dayanaraq istifadə edirlər. Ona görə də dindirmə zamanı bu yaş kateqoriyasından olan uşaqlara xatırlatma üsulu kimi, yaddaşı canlandırmaq məqsədilə hadisə anındakı əşyaları göstərmək məqsədəuyğun hesab edilir. Bu yadasalma uşağa və dindirən şəxsə müqayisəli təhlil imkanı verir.

**11 yaşdan 14-15 yaşa qədər orta məktəb yaşlı yeniyetmələrin** psixologiyası daha geniş idrak prosesləri, özünüdərketmənin inkişafı, vəzifə və məsuliyyət hissinin təzahürü, ünsiyyət ehtiyacının artması ilə təzahür olunur. Yeniyetmələr gördükləri işlərdə müstəqillik nümayiş etdirirlər, böyükləri təqlid etməyə çalışırlar, lakin psixologiyanın yaş xüsusiyyətlərinə görə insanların hərəkətlərini heç də həmişə düzgün qəbul etmirlər. Buna görə də bəzən yeniyetmələrin əxlaqi cəhətdən qeyri-sabit insanların neqativlərini bəyəndiyi hallar olur. Belə hallarda müstəntiq vasitəni dəyişərək aydınlaşdırma texnikasından istifadə edir – işin fərdi hallarını aydınlaşdırmağa kömək edən xüsusi məqamlara və təfərrüatlara dair suallarn

verilməsi, ümumi ifadəni bölməyə imkan verən, ayrı-ayrı epizodların analizinə dair sualların qoyulması.

**14-18 yaşlı** yeniyetmələrdə xüsusilə yaş xüsusiyyətləri ilə əlaqədar fizioloji, fiziki və psixoloji inkişaf sürətlə getdiyindən yeniyetmələr daxili aləmlərində baş verən dəyişikliyə uyğunlaşmaqda çətinlik çəkir, tez-tez büdrəyirlər. Onlar yaxşı ilə pisi, azadlıq ilə özünü idarəni, cəsarətlə ehtiyatsızlığı bir-birindən ayıra bilmirlər, əksər hallarda daxil olduqları qrup tərəfindən yalançı qəhrəmanlığa vadar edilirlər və başqalarının günahlarını üstələnməyə hazır olurlar. Belə olan hallarda dindirmədə şəxsiyyətin müsbət keyfiyyətlərindən yararlanaraq dindirməni başlatmaq lazımdır. Müstəntiqə əvvəlcədən məlum olan şəxsiyyətin müsbət keyfiyyətləri haqqında detallıca suallar vermək (sorğu-sual mövzusuna birbaşa adiyyatı olmayan, lakin şəxs barəsində ifadənin düzgünlüyünü yoxlamaq üçün nəzarət məlumatı əldə etməyə imkan verən faktlar) qarşınızda əyləşən yeniyetmə ilə psixoloji əlaqənin qurulmasına dəstək göstərəcəkdir.

Şahid və zərərçəkmiş üçün cinayətin törədildiyi şərait ekstremal situasiya, şəxsiyyət üçün təhlükə yaradan vəziyyətdir. Adətən cinayəti indicə yaşamış şəxs qorxu hiss edir. Qorxunun psixi və fiziki fəaliyyətinə mənfi təsir edir. Belə halda müstəntiq şahid və zərərçəkmiş qismində olan uşaqları anladığını, hisslərinə bələd olduğunu hiss etdirmək üçün “mən sənin nə hiss etdiyini yaxşı başa düşürəm” kimi ifadələrdən istifadə etməlidir.

Dindirilənə ürəyini boşaltmaq üçün imkan vermək lazımdır. Bunun həm sakitləşdirici, həm də müstəntiqlə emosional təmas yaradıcı tərəfi vardır.

## ƏQLİ İNKİŞAF SƏVİYYƏSİNƏ GÖRƏ (AUTİZM, DAUN SİNDROMLU VƏ YA ƏQLİ POZUNTUSU OLAN YETKİNLİK YAŞINA ÇATMAYANLARIN) DİNDİRMƏNİN XÜSUSİYYƏTLƏRİ

Uşaqların xüsusi ehtiyacları onlarla ünsiyyət qurmalı olduğunuz hər cür şəraitdə nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, inkişafı gecikən və əqli pozuntusu olan uşaqlar müəyyən inkişaf mərhələlərinə digər uşaqlara nisbətən daha gec nail olurlar. Bu səbəbdən xronoloji yaşı deyil, fərdi inkişaf səviyyəsini nəzərə almaq daha məqsədəuyğundur. Aşağıda bəzi ilkin qaydalar verilmişdir:

· yaşı 6 və daha aşağı olan uşaqlar rəqəmləri və saatları, günləri və ayları istifadə etməkdə çətinlik çəkə bilərlər (onları bilsələr də düzgün istifadə etməyə bilərlər; dünən və sabahı qarışdıra bilərlər);

· azyaşlı uşaqlar böyüklərdən tamamilə fərqli əsaslandırma ilə mühakimə yürüdürlər ki, bu da onların verdiyi cavabların böyüklərə qəribə görünməsinə səbəb ola bilər;

· azyaşlı uşaqlar eyni anda yalnız bir fikirə diqqəti cəmləyə bilirlər;

· məktəb yaşına çatmış uşaqlar da daha mürəkkəb cümlələrlə, texniki terminlərlə və hadisələri zaman kəsiyinə yerləşdirməklə bağlı çətinlik çəkə bilərlər;

· uşaqlar onlara verilən sualı anlamasalar belə, həmin suala cavab verməyə meyilli olurlar;

· uşaqlar adətən bir mövzudan digərinə sürətli keçid edirlər;

· uşağın söz ehtiyatı/tələffüzü nə qədər az inkişaf etmiş olarsa, onun ifadələrinin yanlış başa düşülməsi riski bir o qədər böyük olur.

Xüsusi qayğıya ehtiyac duyan uşaqlarla mütəxəssislərin birbaşa iştirakı ilə ünsiyyət qurulmalıdır.

***Ediləcək yanlış bir hərəkət, istifadə ediləcək yanlış ifadə yetkinlik yaşına çatmayan uşağın psixoloji durumuna təsir göstərə, uşaqda travma yarada və ya qəfil əks reaksiyaya səbəb ola bilər.***

- Ünsiyyət çətinlikləri olan uşaqlar (məsələn, nitq pozuntusu olan) yaxşı hazırlıqlı mütəxəssislər (məsələn, işarət dili üzrə) tərəfindən müvafiq və səmərəli yardımla təmin edilməsi tövsiyə olunur.
- Məsələn, tərcüməçilər kimi bu cür peşəkarlar uşaqlara həssas yanaşmaya əsaslanan ünsiyyətin qurulması ilə bağlı ilkin anlayışlara malik olmalıdırlar (xüsusilə təlqinedici suallardan və davranışdan çəkinməli).

- ***Şəxsi həyat/cinsi zorakılıq barədə sorğu-sual edilən uşaqlar öz həmcinsləri olan mütəxəssislə ünsiyyət qurmaq imkanına malik olmalıdırlar.***

## YETKİNLİK YAŞINA ÇATMAYAN ŞAHİDİN DİNDİRİLMƏSİ

Psixoloji baxımdan şahid ifadələri keçmişdə baş verən hadisələrin psixi obrazıdır. Bu zaman yetkinlik yaşına çatmayanların qavrayış xüsusiyyətlərini, eləcə də şəxsiyyətin intellektual və yaddaş xüsusiyyətləri nəzərə alınmalıdır. Şahid ifadələrinin qiymətləndirilməsi zamanı müstəntiq fərdi-psixoloji xüsusiyyətləri, eləcə də, qavrayış, hafizə, cins, yaş, etnik fərqləri də nəzərə almalıdır.

Dindirmə zamanı uşağın özünü yaxşı hiss etməsi baxımından dindirən şəxsin dostyana, qayğıkeş münasibətinin mühüm rol oynadığı müəyyən edilmişdir. Bundan əlavə, bu cür münasibət uşağın danışmaq istəyini artırmağa və dindirmənin keyfiyyətini yaxşılaşdırmağa kömək edə bilər.

Bu baxımdan dindirən şəxsə aşağıda bəzi tövsiyələr verilir:

- Gərgin olmayan, rahat bir ab-hava yaratmağa çalışın;
- Bu ab-havanı dindirmə boyunca saxlamağa çalışın;
- Özünüzün də rahat olduğunuzdan əmin olun;
- Sərbəst şəkildə oturun, asta-asta və aydın danışın, həyəcanlı hərəkətlərdən çəkinin;
- Mümkünsə, vaxt məhdudiyyəti fonunda dindirmə aparmayın (saatınıza

baxmayın);

- Dostyana və hörmətlə yanaşın, lakin qəti şəkildə bitərəf qalmağa çalışın;

- Dinləyin, diqqətli olun və onunla səmimi şəkildə maraqlandığınızı göstərin;

- Özünüz çox danışmamağa diqqət edin;

- Səbirli olun. Arada fasilələrə şərait yaradın. Uşağa fikirləşməsi və cavab verməsi üçün zaman verin;

- Uşağın sözünü kəsməyin;

- Açıq və qərəzsiz olun (hansısa ehtimalı təsdiq etdirməyə çalışmayın!);

- Anlayış göstərin, şəxsi fikrinizi kənara qoyun (bitərəf qalın!);

- Emosiyalarınızı nümayiş etdirməyin;

- Vəd verməyin;

- Səs tonunuzun və bədən dilinizin yuxarıdakıları əks etdirdiyindən əmin olun;

- Yorğunluq, diqqət dağınıqlığı və narahatlıq əlamətlərinə diqqət yetirin;

- Lazım gələrsə fasilə verin, pəncərəni açın, su təklif edin, uşağın bir az hərəkət etməsinə şərait yaradın.

## YETKİNLİK YAŞINA ÇATMAYAN ZƏRƏRÇƏKMİŞ ŞƏXSİN İFADƏLƏRİNİN TƏHLİLİ

Zərərçəkmişin ifadələri dəlillər sistemində xüsusi yer tutmaqla şahid ifadələrindən xeyli fərqlənir. Bu ifadələr həm sübut mənbəyidir, həm də onun mənafeyini qorumaq vasitəsidir. Bu ifadədə onun cinayətə münasibəti və cinayəti izah edən versiyaları əks olunur.

Zərərçəkmişlərin törədilmiş cinayətə münasibəti eyni olmur:

1-zərərçəkmiş cinayətə neytral münasibət bəsləyir;

2-zərərçkəmiş cinayəti gizlətməyə çalışır;

3-zərərçəkmiş cinayətkarların tapılmasını və ciddi cəzalandırılmasını tələb edir.

Zərərçəkmişin ifadələrinin tədqiqi və qiymətləndirilməsi zamanı onun xüsusiyyətləri nəzərə alınır. Zərərçəkmişə imkan yaradılmalıdır ki, ona məlum olan faktları göstərməklə bərabər, öz fərziyə və izahını da bildirsin. Lakin zərərçəkmişin ifadələrindəki faktları onun fərziyələrindən ayırmaq lazımdır. Zərərçkəmişin ifadələrinin düzgünlüyü onun qanuna münasibətindən asılıdır. Yetkinlik yaşına çatmayanlar qavrayış xüsisyyətlərindən asılı olaraq hadisələri bütün hissələri kimi deyil, ayrı-ayrılıqda dərk edir. Ona görə də mümkündür ki, digər böyüklərin diqqətinə çarpmayan detallarla bağlı ətraflı və hərtərəfli məlumat verə bilsinlər.

## BAXIŞ, ŞƏXSİ MÜAYİNƏ, ŞƏXSİN VƏ ƏŞYALARIN TANINMASI, AXTARIŞ İLƏ BAĞLI PROSESSUAL HƏRƏKƏTLƏR ZAMANI YETKİNLİK YAŞINA ÇATMAYAN ŞƏXSLƏRİN PSİXOLOJİ VƏZİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

· Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilməsi ehtimal edilən cinayət hadisəsinin istintaqı aparılarkən hadisə yerinə baxış zamanı yetkinlik yaşına çatmayanın iştirakı mühüm əhəmiyyət kəsb edir. Hadisə yerinə baxış zamanı yetkinlik yaşına çatmayana öncədən prosessual addımın tələblərinin, həmçinin uşağın hüquq və vəzifələrinin izah edilməsi psixoloji cəhətdən zəif və həssas uşaqlarda travmanın təkrarlanması riskinin qarşısının alınması baxımından məqsədəuyğun hesab edilir. İlkin dindirmə prosesində cinayətin detallarından bəhs edərkən cinayət prosesinin tərəfi olan yetkinlik yaşına çatmayanın davranışı ilə bağlı xüsusi məqamlar varsa (fiziki və emosional göstəricilər (əlləri əsir, səsi titrəyir, ürəyi gedir, ağlayır və s. bu kimi)) hadisə yerinə baxış zamanı müvafiq mütəxəssisin iştirakının təmin edilməsi uşaqların ümdə maraqlarının qorunması baxımından zəruri hesab edilə bilər. Baxışa maneçilik göstərə biləcək şəxslər, xüsusən yetkinlik yaşına çatmayana söz və hərəkətləri ilə fiziki və psixoloji zorakılıq tətbiq edən şəxslərin hadisə yerindən uzaqlaşdırılması tövsiyə edilir.

· Təqsirləndirilən və ya zərərçəkmiş yetkinlik yaşına çatmayan şəxsin **şəxsi müayinəsi** zamanı onun müdafiəçisinin prosesdə iştirak etmək hüququ vardır. Yetkinlik yaşına çatmayanın soyundurulması ilə müşayiət edilən şəxsi müayinə zamanı eyni cinsdən olan şəxslərin iştirakı ilə aparılır. Belə ki, xüsusilə tibbi ekspertizaya zərurət olmadığı təqdirdə uşağın psixoloji göstəriciləri nəzərə alınmaqla o, şəxsi müayinəyə hazırlanır. Şəxsi müayinəyə başlamadan öncə prosesin ardıcıllığı yetkinlik yaşına çatmayana izah edilir.

· **Axtarış** zamanı axtarılan şəxsin hərəkətlərinin ideal modelini yaratmaq üçün həmin adamın şəxsiyyətinin əvvəlcədən öyrənilməsinin, onun həyat tərzi ilə, iş rejimi ilə tanışlığın böyük əhəmiyyəti vardır. Axtarılan şəxsin psixologiyası, yəni onun xarakteri, adət və vərdişləri, sənəti və s. mütləq nəzərə alınmalıdır. Obyekti etibarlı, əlçatmaz, ağlagəlməz yerdə gizlətmək məsələsini həll edərkən insan, xüsusilə yetkinlik yaşına çatmayan istər-istəməz öz adət və vərdişlərinə istinad edir, onların təsir dairəsindən kənara çıxa bilmir, adət etdiyi kimi düşünür və hərəkət edir, öz təcrübəsindən, həyat prosesində qazandığı obraz və təsəvvürlərdən, üsul və fəndlərdən, bacarıq və vərdişlərdən, öz sənət və qabiliyyətindən istifadə edir. Eyni zamanda müstəntiq tərəfindən həyata keçirilən axtarış istintaq hərəkəti digər uşaqların da olduğu hər hansısa bir məkanda (uşaq bağçası, orta məktəb, sosial xidmət müəssisəsi və s.) aparıla bilər. Bu zaman:

- Axtarılan yetkinlik yaşına çatmayanın maraqlarının qorunması naminə digər uşaqların yanında tam məlum olmayan informasiyaların bölüşdürülməməsi;

- Digər uşaqların axtarış aparılan məkandan uzaqlaşdırılması;

- Öncədən məlum olan zəruri hal varsa axtarış zamanı tərcüməçinin iştirakının təmin edilməsi;

- Haqqında axtarış qərarı olan yetkinlik yaşına çatmayanla ünsiyyət zamanı hər

hansısa bir zorakılıq növünə yol verilməməsi və ünsiyyət zamanı yaşa uyğun münasibət göstərilməsi məqsədəuyğun hesab edilir.

Şübhəli və ya təqsirləndirilən yetkinlik yaşına çatmayan şəxs barəsində axtarış və götürmənin aparılmasında onun müdafiəçisi iştirak edə bilər.

· İbtidai istintaqda iş üçün əhəmiyyətli faktların əldə olunmasında **şəxsin və əşyaların tanınmasının** xüsusi rolu var. Tanıma hafizə prosesidir və yadasalmanın nisbətən aşağı səviyyəsi kimi cismin təkrarən qavranılmasına istinad edir. Tanıma yadasalmadan sadə prosesdir. Təməl olaraq uşaqların hafizəsi yetkin şəxslərin hafizəsi qədər dərindən inkişaf etməmişdir. Xüsusilə 8 yaşdan kiçik uşaqların uzunmüddətli hafizəsinin inkişaf etməməsi səbəbindən yadasalma və xatırlama prosesi təsadüfi xarakter daşıyır. Əsas məsələ ilk dindirmə anında uşaqların verdiyi ifadələrin daha yeni yadasalma olduğundan daha etibarlı ola biləcəyini göz önündə saxlamaqdır.

Tanımaya təqdimetmə ilə bağlı uşaqların yaddaşlarının (hafizələrinin) ardıcıllığı aşağıdakı kimidir.

1. 2-3 yaş - böyüklərin köməyi ilə gördükləri əşyaları xatırlaya bilərlər.

2. 3-6 yaş - əşyanı, insanı və ya hadisəni tanıya (xatırlaya) və şəklini çəkərək yada sala bilər.

3. 6-12 yaş – məlumatları açar ifadələrlə qismən yada sala və hafizənin dərinliklərindən çıxara bilərlər.

4. 12-18 yaş – hafizənin inkişafı eynən böyüklərdə olduğu kimidir. Bu səbəbdən tanıma daha spesifik və etibarlı xarakterə malik olur.

**Bu inkişaf xüsusiyyətləri hər uşaqda eyni olmur. Burda digər təsiredici amillər (uşağın böyüdüyü sosial mühit, ətrafdakı insanların təzyiqi, hadisə zamanı aldığı travma, əqli inkişaf və s.) nəzərə alınması tövsiyə olunur.**